

"Lətif"

# AZƏRBAYCAN KİNOSU

## DÜNƏN, BU GÜN VƏ SABAH

*Azərbaycanda kino sənəti bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır. Uzun illər Azərbaycan kinosunun tarixi ikisəriyalı «Neft və milyonlar səltənətində» bədii filminin 1916-cı il mayın 14-də ekranlara buraxıldığı gündən hesablanırdı.*

Əslində isə ölkəmizdə onun yaranma tarixi XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı ilə sıx bağlıdır. Neftin sənaye üsulu ilə istehsalına başlanması nəticəsində Bakının iqtisadi dirçəlişi milli mədəniyyətin bir çox sahələri ilə yanaşı, kino sənətinin də meydana çıxması üçün əlverişli zəmin yaratmışdır. Belə bir vaxtda Fransada ixtira olunmuş sinematoqraf dünyanın ən iri şəhərlərində olduğu kimi, çox keçmədən Bakıda da peyda oldu. Tezliklə neft Bakısında yerli həyatdan bəhs edən müxtəlif mövzuda ilk kinosüjetlər çəkildi.

1898-ci il yanvarın 8-dən etibarən Bakıda xarici filmlər göstərilməyə başlandı. Həmin il avqust ayının 2-də müstəqil şəkildə yeni proqram göstərildi. Bu proqrama "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin "Великий князь Алексей" paroxodunda yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal-sənədli və "İlişdin" bədii kinosüjetləri daxil edilmişdi. Bu kinosüjetləri fransız yəhudisi, Rusiyada anadan olub böyümüş, 25 ildən artıq Bakıda yaşayıb işləmiş, Bakı elmi foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mixayloviç Mişon lentə almışdır. Həmin kinosüjetlərdən 2-si – "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" 2001-ci ildə Azərbaycan Dövlət Filmfondunun təşəbbüsü ilə Fransanın kinoarxivindən Azərbaycana göndərilmişdir. Bu kəşfin nəticəsi olaraq, mədəniyyətimizə daim qayğı göstərən, milli kinomuzun inkişafı üçün diqqət və köməyini əsirgəməyən Ümummilli lider cənab H.Əliyev 18 dekabr 2000-ci il tarixli sərəncamı ilə 2 avqustu – kino işçilərinin peşə bayramı – Azərbaycan kinosu günü elan etmişdir.



"Əsl dost"

XX əsrin ilk onilliklərindəki Azərbaycan kinosu xalq adət-ənənələri və məişətinin dolğun təsvir olunduğu, 1915-ci ildə Bakıda Pirone qardaşları tərəfindən təsis edilmiş "Filma" Səhmdar Cəmiyyətinin istehsalı olan "Neft və milyonlar səltənətində", "Arşın mal alan" kimi ilk bədii filmlərlə xüsusən yadda qalmışdır. 1920-ci ildə Azərbaycan Foto-Kino İdarəsi, 1923-cü il aprelin 28-də AFKİ nəzdində I Dövlət kinofabriki və 2 il sonra 2 illik aktyor və rejissor studiyası təsis edilmişdir.

Sonrakı illərdə (1924-1938-ci illər) "Qız qalası əfsanəsi", "Bismillah", "Gilan qızı", "Hacı Qara", "Sevil", "Almaz" filmləri çəkilib ekranlara buraxıldı. Bu dövrün ən əlamətdar hadisəsi 1935-ci ildə ilk səsli bədii filmin – "Mavi dəniz sahilində" filminin çəkilməsi olmuşdur. 50-ci illərdə sənətkarlıq baxımından bir-birindən xeyli fərqlənən bədii və sənədli filmlər – "Görüş", "Bəxtiyar", "Qara daşlar", "Qızmar günəş altında", "Mahnı belə yaranır", "O olmasın, bu olsun", "Uzaq sahillərdə", "Bakının işıqları" və "Fətəli xan" istehsal olunmuşdur. Daha sonralar milli kinonun professional səviyyəsinin yüksəlməsi, ideoloji stereotiplərin müəyyən dərəcədə yumşalması, təsvir vasitələrinin genişlənməsi, sosial və əxlaq problemlərinin daha kəskin həlli nəzərə çarpır. Bütün bunları "Bizim Cəbiş müəllim", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Şərikli çörək", "Nəsimi", "Babək" və digər filmlərdə müşahidə edirik. Müstəqillik dövrünün uğurlu filmlərindən "Qətl günü", "Pəncərə", "Fəryad", "Təhminə", "Yuxu", "Ailə" filmlərini göstərmək olar.

Kinomuzun bu günkü vəziyyəti ürəkaçan olmasa da, ümid edirik ki, kino işçilərimizin yeni nəsli özəl kino istehsalı şəbəkəsini daha da genişləndirəcək, yeni şəraitə uyğunlaşıb dünya kinosunun tərkib hissəsi kimi Azərbaycan kinematoqrafiyasını inkişaf etdirəcək, xalqımıza layiq sənət əsərləri yaradacaq.

**Günay TAĞIYEVA**



"Bir ailə üçün bağ evi"